EASTERN PARTNERSHIP
Civil Society Forum

# Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu

# Azərbaycan Milli Platformasının

# *ETİK DAVRANIŞ KODEKSİ*

***BAKI 2021***

## 1. Ümumi müddəalar

1.1. Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu Azərbaycan Milli Platformasının (bundan sonra Milli Platforma adlandırılacaq) Etik Davranış Kodeksi Milli Platforma üzvülərinin etik davranış qaydalarını və prinsiplərini, habelə həmin qayda və prinsiplərə əməl olunması ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Etik Davranış Kodeksi Milli Platformanın Nizamnaməsi, Üzvlük siyasəti sənədi, Avropa İttifaqı Platformaninin (Aİ) Şərq Tərəfdaşlığı (ŞT) Vətəndaş Cəmiyyəti Forumu (VCF) Nizamnaməsi, Etik Davranış Kodeksinin tələblərini nəzərə alır.

1.3. Etik Davranış Kodeksi Milli Platformanın Ümumi Yığıncağı tərəfindən qəbul edilib və təsisat olaraq Milli Platformanın, onun üzvləri, idarəetmə orqanları və digər struktur vahidləri üçün etik davranış qaydalarını və prinsiplərini, habelə həmin qayda və prinsiplərə əməl olunması ilə bağlı rəhbər sənəddir.

1.4. Etik Davranış Kodeksinə əlavə və dəyişiklik yalnız Milli Platformanın Nizamnaməsində nəzərdə tutulan qaydada Ümumi Yığıncaq tərəfindən edilə bilər.

1.5. Hər bir Platforma üzvü Etik Davranış Kodeksi ilə bağlı Milli Platformanın idarəetmə orqanlarına, Ümumi Yığıncağa təklif verə bilər.

1.6. Etik Davranış Kodeksi ilə Nizamnamə arasında hər hansı ziddiyyət yarandığı zaman sonuncunun müddəaları əsas götürülür.

## 2. Əsas dəyərlər

Milli Platforma ŞTVCF –nin Etik Davranış Kodeksində qeyd olunan aşağıdakı fundamental dəyəri bölüşür və sadiqliyini bəyan edir:

1. İnsan hüquqlarının və sosial ədalətin təşviqi;
2. İnsan ləyaqətinə hörmət;
3. Şəffaflıq və hesabatlılıq;
4. Yaxşı idarəçilik;
5. Müxtəliflik və inklüzivliyin təşviqi;
6. Gender bərabərliyinin və ədalətin təşviqi;
7. Vətəndaş iştirakçılığının təşviqi;
8. Ətraf mühitin qorunmasının təşviqi;
9. Korrupsiya və digər qanuna zidd əməllərə qarşı çıxış etmə;
10. Müsbət davamlı dəyişikliklər həyata keçirmək öhdəliyi.

## 3. Etik dvarnış prinsipləri

3.1. **Qanunçuluq prinsipi** – Milli Platforma və onun üzvləri öz fəaliyyətində Azərbaycan Respublikası Konstitutiyasının, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, Azərbaycan Respublikasının qanunlarının və digər normativ hüquqi və normativ xarakterli aktları, Milli Platformanın

Nizamnaməsini, Etik Davranış Kodeksini və digr daxili sənədlərin tələblərinə ciddi əməl etməlidir.

3.2.**İctimai etimad prinsipi** – Milli Platforma üzvləri bütün maraqlı tərəfləri şəffaf, hesabatlılıq standartlarına ciddi riayət etdiklərinə inandırmalıdırlar. Platformanın tərəfdaşlarına, əməkdaşlıq etdiyi quurmlara, maraqlı tərəflərə dürüst məlumat verməlidirlər.

3.3.**Loyallıq**-Milli Platforma üzvü Platformya münasibətdə loyallıq nümayiş etdirməli. Kifayət qədər əsaslar olmadığı halda Milli Platforma və onun rəhbər orqanlarına münaisbətdə tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir. Milli Platforma üzvləri Milli Platformanın fəaliyyətinə xələl gətirə biləcək, habelə onun nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.

3.4. **Platforma üzvlərinin müstəqilliyi** - Milli Platformaya üzvlük və Platformada fəaliyyət hər bir təşkilatın öz mövqeyini sərbəst ifadə etmək, bununla bağlı qərar vermək iradəsinin mövcudluğna əsaslanır. Milli Platformanın məram və məqsədlərinin həyata keçirilməsinə, müstəqil fəaliyyətə mane olan, kölgə salan təşkilatlarda üzvlük, iştirak, təəssübkeşlik yolverilməz hal sayılır. Milli Platforma üzvləri dövlət və özəl sektorun, yerli özünüidarə orqanalarının, dini təşkilat, qurum və cərayanların, habelə siyasi partiya və hərakatların təsirini mümkün edən, hər hansı formada asılılıq yaradacaq hallar və əlaqələrdən çəkinməlidirlər. Milli Platforma üzvləri dövlət və özəl sektordan, yerli özünüidarə orqanalarından, dini təşkilat, qurum və cərayanlardan, siyasi partiya və hərakatlardan göstəriş ala bilməzlər.

3.5. **Qərəzsizlik -** Milli Platforma üzvləri Platformanın qərarlarının icrası, yaxud Platformaya aidiyyatı olan hər hansi fəaliyyətlərin həyata keçirilməsi zamanı qərəzsizlik nümayiş etdirməlidirlər.

3.6. **Konfidensiallıq- Milli Platforma üzvü Platforma və onun fəaliyyəti ilə bağlı konfedisial məlumatların,** həmçinin açıqlanması insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulmasına səbəb ola bilən məlumatların yayılmasına yol verməməlidirlər. Acıq şəkildə yalnız daxili istifadə ucun nəzrdə tutulduğu bildirilən və başqa hec bir yerdə yayılmayan məlumat konfidensial olaraq qiymətləndirilir.

3.7. **Maraqlar toqquşmasının qarşısının alınması -** Milli Platforma üzvü maraqların toqquşmasına yol verməməlidir və Platformaya üzvülüyün verdiyi imkanlardan şəxsi maraqları üçün istifadə etməməlidir. Platforma üzvü kimi öhdəlikləri və cavabdehliyi ilə onun şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda o, həmin maraqların xarakteri barədə məlumat verməyə borcludur.

Milli Platformanın rəhbər orqanlarının üzvləri bilavasitə onların maraqlarına toxunan məsələlərlə əlaqədar qərarların qəbulunda iştirak etməməlidirlər.

Milli Platformanın rəhbər orqanlarının üzvləri vəzifə səlahiyyətlərindən özləri üçün hər hansı güzəşt, imtiyaz və üstünlük əldə edilməsi məqsədilə istifadə etməkdən çəkinməlidirlər.

Milli Platfromanın rəhbər qurumlarında və qrantların idarə edilməsində yaxın qohumların iştirakına (qohumbazlığa, nepotizmə) yol verilmir.
İctimai vəkillik, insan hüquqlarının müdafiəsi, digər oxşar fəaliyyətlər zamanı Milli Platforma üzvləri mənsub olduqları siyasi partiya və hərakatların siyasətindən tam müstəqil yanaşma nümayiş etdirməlidirlər. Hər hansı seçkiyə qatılaraq təşviqat kampaniyası aparan, başqa namizədin kampaniyasında iştirak edən şəxs seçki dövründə Milli Platforma üzvü olaraq qala bilməz. Bu halda həmin üzv əvəzlənməlidir.
Eyni siyasi partiyanın birdən artıq üzvü eyni səviyyəli rəhbər orqanda təmsil oluna bilməz.

## 4. Platforma daxilində etik davranış

### 4.1. **Nəzakətli davranış**

Milli Platforma üzvləri həmkarlarına münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır. Heç bir verbal (qeyri-etik ifadələr də daxil) və ya fiziki münaqişəyə, o cümlədən hər hansı formada hədəyə yol verməməlidirlər. Xüsusən, milli, etnik, mədəni, gender mənsubiyyətinə və dini etiqadına görə ayrı-seçkilik kimi qiymətləndirilə bilən açıqlamalar yolverilməzdir.

Üzvlər fikir müxtəlifliyinə və həmkarlarının fərqli mövqelərinə hörmət etməlidirlər. Onlar Milli Platformanın məqsədlərinə və inkişafına yönəlmiş istənilən yeni və müxtəlif ideyaları dinləməyə və müzakirə etməyə hazır olmalıdırlar.

Hər bir üzv Platformanın Nizamnaməsi və Etik Davranış Kodeksinin tələblərinə ciddi əməl etməli və bu sənədləri ciddi öyrənməli, məsuliyyətlərini anlamalıdırlar.

### 4.2. Dövlət orqanları ilə əməkdaşlıq

Milli Platforma dövlət orqanları ilə yalnız Platformanın öz məqsədlərinə çatmaq üçün faydalı olduqda və öz müstəqilliyini qorumaqla əməkdaşlıq edə bilər və sazişlər imzalaya bilər. Milli Platformanın və onun üzvlərinin dövlət qurumları və hakimiyyət nümayəndələrilə Platformanın fəaliyyəti üzrə müstəqilliyinə xələl gətirə biləcək istənilən əlaqə və əməkdaşlığına yol verilmir.

Milli Platforma maraqlarına uyğun olduqda və qarşılıqlı hörmət prinsipi əsasında dövlət qurumları ilə Platformaya fayda qazandıracaq, Milli Platformanın gündəliyində olan məsələlərin həllinə töhfə verəcək dialoq imkanları axtarmalı və əməkdaşlıq etməlidir.

### 4.3. Bəyanatlar, məqalələr, mövqelər

Milli Platformanın üzvləri Platformanın məqsəd və məramlarına, fundamental dəyər və prinsiplərə, avrointeqrasiya və Şərq Tərəfdaşlığı proqramının digər baza prinsiplərinə zidd olan bəyanatlara, fakta əsaslanmayan nəşrlərə və mövqe

ifadələrinə, o cümlədən Platformaya və onun üzvlərinə qarşı qarayxma kampaniyalarına yol verməməlidirlər.

Platforma adından bəyanatlar yalnız üzv tşkilatların yarıdan çoxu tərəfindən dəstəkləndiyi halda verilir.

Şəxsi mövqelər Milli Platformanın mövqeyi kimi təqdim edilə bilməz.

**4.4. Maliyyə fəaliyyəti**

Milli Platforma eyni bir iş üçün iki və daha çox mənbədən maliyyə dəstəyinin alınması, ayrılmış vəsaitlərin nəzərdə tutulan məqsədlərdən kənar məqsədlər üçün istifadə edilməsinə yol verməməidir.

Öz işində şəffaflıq və hesabatlılıq prinsiplərini rəhbər tutmalıdır.

**4.5. Təşviqat materialları**

Milli Platforma əmin olmalıdır ki, bütün təşviqat və reklam materialları həqiqəti əks etdirən məlumatlardan hazırlanıb. Yanlış təsəvvür yaradan, doğru olmayan hansısa faktın və ya materialın, audio-vizual məhsulların yayılmasına yol verilmir. Milli Platforma və onun üzvləri təşviqat materiallarında təzyiqə, hədsiz təsirə və digər qeyri-etik vasitələrə yol verməməlidirlər.

**4.6. Maliyyələşmə prinsipləri**

Milli Platforma tərəfindən maliyyə vəsaitlərinin axtarılması və cəlb olunması yalnız Platformanın missiyasına uyğun şəkildə həyata keçirilməlidir. Maliyyə vəsaitlərinin axtarılması və cəlb olunması zamanı məcburiyyətə, düzgün olmayan məqsəd qarşıya qoyulmasına, qeyri-dəqiq icraya, əsassız mükafatlandırmaya və ya şəxsi bəhrələnməyə yol verilmir.

**5. Məsuliyyət**

Milli Platforma üzvləri Milli Platformanın Nizamnaməsi, Etik Davranış Kodeksi və digər daxili sənədlərinin tələblərinin pozulmasına görə məsuliyyət daşıyırlar.

Milli Platformanın hər hansı bir uzvunun Milli Platformanın Nizamnaməsi və bu Kodeksin tələblərinin pozması barədə məlumatı Platformanın istənilən uzvu, Etik məsələlər üzrə məsləhətçiyə yazılı və digər şəkildə təqdim edə bilər. Barəsində şikayət verilmiş üzv oz movqeyini bu barədə ona məlumat verildikdən sonra 5 (beş) iş gun ərzində təqdim etməlidir.

Etik məsələlər üzrə məsləhətçi şikayətə ən geci 10 (on) iş günü ərzində baxılmasını təmin etməlidir.

**6. Etik Davranış Kodeksinə əməl edilməsinin təmin edilməsi**

Etik Davranış Kodeksinə əməl olunmasını təmin etmək üçün Milli Platformanın Etik məsələlər üzrə məsləhətçisi müntəzəm təhlil aparmalıdır;
Etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər görməlidir;
Zərurət yarandığı hallarda Milli Platforma üzvlərinə etik davranış qaydalarını izah etməli və müraciət olunduğu təqdirdə etik davranış qaydalarına əməl olunmasına dair onlara tövsiyələr verməlidir;
Etik Kodeksin tələblərini pozan Milli Platforma üzvlərini Nizamnaməyə uyğun olaraq intizam məsuliyyətnə cəlb edilməsi üçün tədbirlər görməlidir;
Etik Davranış Kodeksinə əməl edilməsi ilə bağlı Milli Platforma üzvündə hər hansı sual yarandıqda, bu barədə Milli Platformanın Etika məsələləri üzrə məsləhətçisinə müraciət etməlidir.